# *Gürcüstanın XİN başçısı:*
# "Güclü dövlət institutlarımızın sayəsində təhdidlər aradan qaldırılıb"



**Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə görüşdən sonra keçirilən birgə brifinqdə bildirib ki, biz son zamanlar ölkəmizin daxili işlərinə müdaxilə məsələsində müəyyən addımlar atıldığını gördük. Güclü dövlət institutlarımızın sayəsində bu təhdidlər aradan qaldırılıb.**

AZƏRTAC-ın verdiyi məlumata əsasən, M.Boçorişvili qeyd edib ki, Gürcüstan Avro-Atlantik məkana inteqrasiyada maraqlıdır. Bunun üçün həm Avropa İttifaqı, həm də Gürcüstan tərəfindən çox iş görülməlidir.

Ölkələrimizin arasında çox nümunəvi əlaqələrin olduğunu qeyd edən gürcüstanlı nazir söyləyib ki, Azərbaycan Gürcüstanın ən böyük beş iqtisadi tərəfdaşı sırasındadır: "Biz birlikdə mühüm və böyük layihələr icra edirik. Bunlar təkcə bizim üçün yox, region üçün də əhəmiyyətlidir".

O bildirib ki, Qara dənizin dibi ilə başqa ölkələrə enerjinin çatdırılması da vacib layihələrdən biridir.

"Regionumuzun potensialından daha yaxşı istifadə etmək üçün çalışırıq. Bu potensialı daha çox nümayiş etdirmək üçün sülh vacibdir", - deyə gürcü nazir vurğulayıb.

M. Boçorişvili deyib ki, xarici işlər naziri kimi ilk səfərini Azərbaycana etməyi onun üçün şərəfdir. Azərbaycanla strateji tərəfdaşlıq Gürcüstan üçün əhəmiyyətlidir.

O vurğulayıb ki, ölkələrimiz arasındakı əməkdaşlıq siyasi-iqtisadi münasibətlərdə yeni imkanlar yaradır.

Azərbaycan.- 2025.- 17 yanvar (№ 10).- S.3.